**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR POEZİYADA KÖÇ VƏ İŞĞAL PROBLEMİNİN ƏKSİ (QƏRBİ AZƏRBAYCANLI QAÇQINLARIN YARADICILIĞI ƏSASINDA)

İxtisas: **:** 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Şəfahət Müzəffər oğlu Əliyev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya Bakı Avrasiya Universitetinin Ümumi filologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, professor
**Elman Hilal oğlu Quliyev**

Filologiya elmləri doktoru, professor
**Nizami Tağı oğlu Məmmədov**

Filologiya elmləri doktoru, dosent
**Əlizadə Bayram oğlu Əsgərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, dosent
**Leyla Kamran qızı Məmmədova**

İtirilən torpaqlar, qədim yurd yerlərinin bir mədəniyyət ocağı olaraq sıradan çıxarılması, coğrafi və etnoqrafik atlasının pozulması bütün mahiyyəti ilə bədii düşüncədə aparıcı mövzu olaraq ön xəttə çıxır. Qərbi Azərbaycandan olan şairlərin yaradıcılığı bu müstəvidə son dərəcədə zəngin material təqdim edir və onun sinxron və diaxron müstəvidə təhlilə gətirilməsi aktual olaraq mühüm məzmun daşıyır.

Çar Rusiyasının Qafqaz siyasəti, eləcə də bolşeviklərin bir başqa müstəvidə işğalçılıq məfkurəsi təkcə coğrafi kontekstdə ərazilərin zəbti ilə məhdudlaşmırdı, bunun digər qatında etnosun milli mədəniyyət fonduna qarşı total hücumlar özünü göstərirdi. Ermənilərin məqsədli şəkildə qədim mədəniyyət mərkəzlərindən olan İrəvana, Göyçəyə, Gümrüyə, Ağbabaya, Dərələyəzə, Qarabağa və s. bölgələrə yerləşdirilməsi imperiyanın strateji hədəflərində mühüm yer tuturdu. Eyni zamanda yerləşdirmənin Gülüstan və Türkmənçay müqavilələrinin bəndlərində də öz əksini tapması imperiyanın perspektiv fəaliyyət proqramının olmasını sübut edirdi. Bütün bunlar düşünülmüş şəkildə qarşıdurmalara, siyasi hakimiyyətin problemlər yaşadığı zamanlarda mövcud vəziyyətdən yararlanmağa xidmət edirdi.

Şah Abbasın farslaşdırma siyasəti, Nadir şahın sui-qəsdlə qətlə yetirilməsi, xanlıqlar zamanı, dövlətçilik kontekstində özünü göstərən zədələnmələr və s. son olaraq Azərbaycanın ikiyə parçalanmasını və Qərbi Azərbaycanın torpaqları hesabına Ermənistan adlı bir dövlətin qurulmasını qaçılmaz etdi. Monoetnikləşdirmə siyasəti tədrici yerləşmədən öz başlanğıcını götürməklə iyirminci yüzilliyin sonlarında bir məkrli konsepsiya olaraq rusların havadarlığı ilə erməni millətçiləri tərəfindən reallaşdırıldı. Bütün bunların paradiqmatik mənzərəsi ədəbiyyatın şifahi və yazılı qolunda təfsilatı ilə müxtəlif forma və üsullarla özünün ifadəsini tapmışdır. Nəsr, dramaturgiya, publisistika, zəngin folklor mədəniyyəti müxtəlif poetexnoloji vasitələrlə olanları tarixin yaddaşına verməyi bir məram olaraq qarşısına qoymuşdur. Poeziya bu baxımdan funksional rolu ilə daha çox nəzər-diqqəti cəlb edir və ictimai-siyasi prosesin mahiyyətini ortaya qoymaq, toplumun mücadiləsini, iç ağrılarını, vətənqurma

təsəvvürlərini aydınlaşdırmaq baxımından əvəzsiz qaynaq olaraq mühüm önəm daşıyır. Bütün bunlar çağdaş ədəbiyyat miqyasında köç, işğal, milli mədəniyyət fondunun zədələnməsi, tarixi torpaqların itirilməsi ilə yanaşı, həm də ona qarşı etnosun mübarizə konsepsiyasının işlənməsini mövzu olaraq aydınlaşdırmağı bir problem kimi zərurətə çevirir.

Problemin işlənmə səviyyəsi hadisələrin baş vermə zamanı ilə paralel addımlamışdır. Tarixçilər, etnoqraflar, siyasətçilər, arxeoloqlar, musiqişünaslar, folklorşünaslar, ədəbiyyatşünaslar, söz, sənət adamları yurda, millətə sahib durmaq mövqeyindən çıxış edərək müxtəlif səviyyələrdə mövqe nümayiş etdirmişlər. Xalq yaradıcılığı, ədəbiyyatın yazılı qolu bütün hadisələrin mahiyyətinə varmaq üçün bir qaynaq rolunu oynamışdır. Milli dövlət konsepsiyasının işlənməsi səviyyəsində gedən proseslər A.Bakıxanov, İ.Qutqaşınlı, M.F.Axundov, H.Zərdabi, M.Şahtaxtlı, A.Səhhət, M.Ə.Rəsulzadə, Ə.Ağayev, Ə.Hüseynzadə, M.B.Məmmədzadə, Ş.C.Əfqani, C.Məmmədquluzadə və başqaları timsalında formalaşdırılan dövlətçilik məfkurəsi ədəbiyyatın daha çox poeziya qanadı ilə topluma təlqin olunurdu.

XIX əsr boyu gedən proseslər iyirminci yüzillikdə mahiyyəti qorumaqla reallaşdırma baxımından fərqli planların hazırlanmasını da ön plana gətirdi. Ədəbiyyatda F.Köçərlinin, M.M.Nəvvabın, M.Müctəhidzadənin, C.Cabbarlının, Ə.Ağayevin, M.S.Ordubadinin və başqalarının müxtəlif səviyyələrdə milli kontekstdən olan münasibəti bolşeviklərin dönəmində onilliklər boyu ciddi qadağalarla, “xalqlar dostluğu və qardaşlığı” adı altında örtülü, məqsədli və planlaşdırılmış şəkildə həyata keçirilmişdi. İkinci dünya müharibəsi və sonrakı dövrdə baş verənlər bunun tipik örnəkləridir. Mətbuatdakı senzura, sərt siyasi rejim bunun mahiyyətinin açılmasına heç bir vəchlə imkan yaratmamışdı.

80-ci illərin ortalarından başlayan dönəm Qərbi azərbaycanlıların köç, işğal proseslərinin açıq müstəviyə keçməsi baxımından ayrıca mərhələdir. Poeziyanın şifahi və yazılı qolunun bu prosesdə iştirakı reallığa bağlanır. Daha doğrusu, erməni təcavüzünə

gedən yolun sırf baş verənlər miqyasında siqnallarını açıq şəkildə təhlilə ehtiyacını ortaya qoyur. Çoban Məhəmməd (1857-1937), Usta Abdulla Zodlu (1865-1943), Şair Əbdüləzim (1873-1943), Şair Bəşir (1867-), Xəstə Bayraməli (1899-1952), Şair Bəhmən, Şair Aqil (1899-1943), Şair Həşim (1912-1989), Şair Əbülfət (1914-1944), eləcə də 80-ci illər sonu yurd yuvalarından zorla köçürülmüş Həsən Mirzə, İsmixan Didərgin, Şair Bəhmən Göyçəli, Hidayət, Vahid Əziz, Əli Vəkil, Eldar İsmayıl, Telli Pənahqızı, Alqayıt, Mahirə Nağıqızı, İsmayıl Öməroğlu, Musa Urud, Flora Xəlilzadə, Xıdır Alovlu, Ramiz Heydər, Məcnun Göyçəli, Zəki İslam, Lətif Vedili, Bilal Ənsər, Tərlan Göyçəli, Nazim İbrahimoğlu, Aftandil Ağbaba, İbrahim Köçgün, Firəngiz Bayramova, Əhməd Vedili, Pərvanə Zəngəzurlu, Sabir Mustafa, Məmməd Elli, Sevinc İrəvanlı, Kamal Körpülü, Firudin Qənbər, Elnarə Xəyal, Valeh Savalan, Zöhrə Xəlilli, Mənsur, Zakir Şəhriyaz, Qələndər Göyçəli, Rövşən İsgəndəroğlu, Zahid Məcid,Tahir Talıblı və başqa sənətkarların şeirlərinə yazılmış resenziya xarakterli yazılarda bu və ya digər dərəcədə təhlil olunur. Ön söz, resenziya, mühiti təhlil baxımından səciyyələnən araşdırmalar Qərbi azərbaycanlı şairlərin yaradıcılığındakı mövzu spesifikasını xarakterizə edir. Burada dövrün hadisələrinə münasibət, erməni vəhşilikləri, siyasi rejimin havadarlığı altında baş verənlər, azərbaycanlılara qarşı müxtəlif səviyyələrdə məkrli işləmlər, eləcə də azərbaycanlı toplumun yurd, torpaq sevgisi, vətənqurma mücadiləsi, tarixi yaddaşa, milli dəyərlərə bağlılığı və bu müstəvidə əxlaqi dəyərlərə sadiqliyi ilə özünün parlaq ifadəsini tapır. Sanki poeziya baş verən prosesin güzgüsü olaraq ağırlığı öz üzərinə götürür və ədəbi-nəzəri fikri bu istiqamətə kökləyir.

M.Seyidovun “Azərbaycan-erməni ədəbi əlaqələri”, Y.Ramazanlının “Azərbaycan dilində yazıb yaradan erməni aşıqları (XIX əsr)”, İ.Abbaslının ”Erməni həqiqətləri”, H.Orucovun “Qatardan məktub”, “Seçilmiş əsərlər”, “Özümü yazmaq istərdim”, “Burdan min atlı keçdi”, H.Mirzənin “Qərbi Azərbaycan Dərələyəz mahalı”, “Dərələyəz folkloru”, “Hanı o səndəki el, Dərələyəz”, Məmməd Orucun “Köçürülmə”, Y.Qarayevin “Göyçəyə qayıdan yol folklordan

keçir", M.Nağıqızının "Dərdi dərin Həsən Mirzə", "Qərbi Azərbaycan paleotoponomlərinin linqvistik etimoloji təhlili", "Onun daş nağılı", M.Hüseynovun "Göyçə həsrətinə həsrət qalaydım", H.Kürdoğlunun "Yaralı torpağım, yaralı sevgim", Q.Namazovun "Qüdrətli söz ustadı", "Azərbaycan aşıq sənəti", Ə.Ələkbərlinin "Qədim Türk-Oğuz yurdu "Ermənistan", "Qərbi Azərbaycan", "Qərbi Azərbaycan abidələri", "Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı: Sənədlərin dili ilə", "Kadim Türk-Oğuz Yurdu "Ermenistan", B.Xəlilovun "İrəvan pedaqoji məktəbi", M.Allahmanlının "Folklor poetikasına bağlı poeziya", H.İsmayılovun " Göyçə aşıqları və el şairləri", E.İsmayılın " Cahan ömrü", "Zavallı ermənilər, yoxsa zalım ermənilər", A.Ağbabanın "Qürbət elin ağrısı", C.Cəfərovun "İrəvanda ictimai-siyasi mühit", İ.Bayramovun "Qərbi Azərbaycan toponim sistemi", T.Qurbanovun "Qanlı terror gün işığında", M.Mərdanovun "Qərbi Azərbaycan həqiqətləri: Qaraqoyunlu dərəsinin Göyərçin və Salahlı kəndləri", akademik M.İmanovun layihəsi əsasında dərc olunmuş "Qərbi Azərbaycan folkloru" toplusunun I və II cildlərində və başqalarının müxtəlif səpkili əsərlərində və yazılarında təhlilini tapır.

Problemin monoqrafik kontekstdə işlənməsi və köç, işğal səviyyəsində Qərbi azərbaycanlı yazarlarının poeziyasının təhlili olmamışdır. Bütövlükdə müxtəlif sənətkarların poetik örnəklərinin qiymətləndirilməsində əksini tapan nəzəri aspekt son olaraq monoqrafik araşdırmalara gedən yolun baza prinsiplərini müəyyənləşdirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Qərbi azərbaycanlı şairlərin köç və işğal mövzusunda yazdığı poeziya nümunələri təşkil edir. Araşdırmanın predmetini yazılan poetik örnəklərin mövzu və məzmun müstəvisində zənginliyinin tədqiqi müəyyənləşdirir. Baş verənlərin ədəbi mühitdə dərki, topluma ünvanlanmanın məqsəd və məramı, yaradıcı mövqeyi, milli mənsubluq missiyasının aşılanması və onun ifadə üsullarının spesifiklik məqamları və s. predmet olaraq diqqət mərkəzində saxlanır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Qərbi azərbaycanlı şairlərin poeziyasında köç və işğal problemini təslifatı ilə elmi-nəzəri kontekstdə təhlil etməkdir. Qarşıya qoyulan məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələr planlaşdırılmışdır:

– Qərbi Azərbaycanın bir mədəniyyət ocağı olaraq ümumazərbaycan səviyyəsində yerini və məqamını aydınlaşdırmaq;

– bölgənin maddi və mənəvi arxeoloji atlasının hansı özünəməxsusluq göstəriciləri ilə səciyyələnməsi spesifikasını aşkarlamaq;

– ictimai-siyasi, sosial-mədəni, dini-fəlsəfi kontekstdə proseslərin tarixi xronotoplarını müəyyənləşdirmək;

– son iki yüzillikdə ədəbiyyatın şifahi və yazılı qolunda, baş verən hadisələrə münasibətin millilik konseptini açıqlamaq;

– çar Rusiyası və bolşeviklərin hakimiyyəti dönəmində türk toplumuna fərqli yanaşmanın baza prinsiplərini Qərbi azərbaycanlı şairlərinin yaradıcılığından çıxış etməklə aydınlaşdırmaq;

– Azərbaycanın tarixi torpaqlarına ermənilərin yerləşdirilməsi prosesinin mahiyyətində olanları və erməni dövləti qurmağa qədər işin aparılmasının geneoloji məzmununu aşkarlamaq;

– Qərbi Azərbaycandan olan toplumun erməni tipi haqqında formalaşmış təsəvvürünün poeziyada dərki və təqdimini müəyyənləşdirmək;

– köç və işğal probleminin etnik müəyyənlikdə qoyduğu dağıdıcı izlərin hissi-psixoloji mənzərəsini aydınlaşdırmaq;

– arxaik yaddaşdan gələnlərin qorunuşuna əsaslanmaqla və həm də oradan çıxış etməklə yurda qayıdışın konsepsiyasının poeziyada işlənməsini müəyyənləşdirmək;

– köç, işğal probleminin Qərbi azərbaycanlı şairlərin yaradıcılığında dərki və ifadə üsullarını aydınlaşdırmaq və s.

**Tədqiqatın metodları.** Dissertasiya işi tarixi-müqayisəli, təsviri-tipoloji metodların ümumi prinsiplərindən yararlanmaqla yazılmışdır. Araşdırmada yeri gəldikcə çağdaş elmi-nəzəri fikrin əldə etdiyi təcrübədən bəhrələnilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Qərbi azərbaycanlı şairlərin yaradıcılığının köç və işğal problemi baxımından sistemli araşdırılması bir sıra problemlərin ardıcıllığını zəruri edir.

a) Qərbi azərbaycanlı şairlərin zəngin yaradıcılıq çeşməsi bütün səviyyələrdə etnik bütövlüyün nümunəsi olaraq spesifiklik qazanır. Mühitin bədii düşüncədəki şifahi və yazılı qolu etnokulturoloji sistemin mükəmməlliyini və yüksək təfəkkür ilə toplumun kimliyini aydınlaşdırır.

b) poeziya son iki yüz ildə baş verənlərin miqyasını və fəci vəziyyətini, regionun tarixi, coğrafi və mədəni landşaftında gedən prosesləri aydınlaşdırmaq baxımından əvəzsiz qaynaq rolunu oynayır.

ç) köç və işğala aparan yolun tarixi-sosial, ictimai-siyasi mənzərəsində mahiyyət və mövcudluq məsələsi olaraq nələrin dayandığını aydınlaşdırmaq və erməni tipinin hansı təhlükələrə yol açdığını müəyyənləşdirmək baxımından poeziya ciddi faktura ilə səciyyələnir.

d) yurda qayıdış, düşmənə layiqli cavab vermək, vətənsevərlik, qəhrəmanlıq və milli-mənəvi dəyərlərin təlqini və qorunuşu bir prinsip və mövcudluq nümunəsi olaraq Qərbi azərbaycanlı şairlərin şeirlərində əsas götürülür.

e) Qərbi Azərbaycan şairlərinin poeziya örnəkləri milli səviyyədə ifadə üsulları və məzmun qatları ilə ümumazərbaycan poeziyasının bir parçası kimi özünə yer tutur .

**Tədqiqatın elmi yeniliyi.** Son iki yüz ildə yaşananların miqyasını və doğurduğu humanitar fəlakətlərin ucu-bucağı görünməyən acılarını müəyyənləşdirmək baxımından köç və işğal probleminin Qərbi azərbaycanlı şairlərin yaradıcılıq örnəkləri əsasında işlənməsi kifayət qədər ciddi elmi yeniliklərə əsas olmuş və aydınlaşdırılmışdır ki:

– Qərbi azərbaycanlı qaçqınların yaradıcılığı dövrün ictimai-siyasi, tarixi-mədəni, dini-ideoloji mənzərəsini izləmək və dolğun təsəvvür formalaşdırmaq baxımından lazımi qədər zəngin bədii material təqdim edir.

– tədqiq olunan materiallar regional-məhəlli səviyyədə mühitin ruhunu, etnoqrafik zənginliyini, tarixi-mədəni xronikasının spesifikasını müəyyənləşdirmək üçün mükəmməl mənbə rolunu oynayır.

– Qərbi azərbaycanlı qaçqınların yaradıcılığında törə münasibətlərinin, müqəddəs dəyərlərin unikallığı bir poetik prinsip olaraq əsas götürülməklə arxaik normativlərin dominantlığına üstünlük verilir;

– iki yüz illik zaman miqyasında baş verənlərin sosial-siyasi mənzərəsində imperiya ideologiyasının izi ortaya qoyulur;

– bu yaradıcılıq nümunələrində erməni məfkurəsinin bütünlükdə insanlıq, bəşər sivilizasiyası üçün təhlükə qaynağı olması bütün aspektləri ilə özünün bədii-fəlsəfi inikasını tapmışdır;

– Qərbi azərbaycanlı qaçqınların yaradıcılığında köç, işğal probleminin miqyası və hansı fəlakətlərə yol açması baş vermiş hadisələrin bədiiləşməsi fonunda faktlaşdırılmışdır.

– sözügedən bədii faktura etnosun mövcudluq məsələsində milli bütövlüyün bir konsepsiya olaraq işlənməsini və topluma təqdimini bütün bədii parametrlər səviyyəsində vurğulamışdır;

– tədqiq olunan poeziyanın şifahi və yazılı qolunda erməni tipinin bütün zamanlar üçün təhlükə mənbəyi olmaqla, həm də ona qarşı dayanmağın konseptuallığı bədii leytmotivə çevrilmişdir;

– bu yaradıcılıq nümunələrində yurda qayıdış, düşmənə layiqli cavab vermək, yurd, torpaq sevgisi, əcdad ruhuna sədaqət və s. kimi təsəvvürlərin bir mənsubluq missiyası olaraq formalaşdırılması başlıca ideyalar kimi təqdim olunur;

– Qərbi azərbaycanlı qaçqınların yaradıcılığında xalq şeiri ənənəsindən gələn poetik qəliblər öz təcəssümünü tapmaqla xalq bədii təfəkkürünün ən dərin qatları ilə əlaqəsinin sarsılmazlığını təmin etmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Araşdırmanın nəzəri əhəmiyyəti ilk növbədə onda əldə olunmuş nəticə və yeniliklərdən sonrakı tədqiqatlarda istifadə imkanları ilə şərtlənir və köç, işğal, milli oyanış, yurda qayıdış kimi problemlərin işlənməsində, poeziyada

sərgilədiyi mənzərənin miqyasını müəyyənləşdirmədə mühüm nəzəri əhəmiyyət kəsb edir.

Dissertasiya etnoqraflar, tarixçilər, folklorşünaslar, ədəbiyyatşünaslar və ümumiyyətlə, bu mövzuda araşdırma aparanlar üçün praktik əhəmiyyət daşıyır. Tədqiqatdan sahə mütəxəssisləri, ali məktəblərin tələbələri bir mənbə olaraq yararlana bilərlər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələri yerli və beynəlxalq səviyyəli nüfuzlu mətbu orqanlarda çap olunan məqalələrdə, müəllifin konfrans və simpoziumlardakı çıxışlarında öz əksini tapmışdır.

Araşdırmadan əsaslı mənbə kimi köç və işğal mövzusu ilə bağlı təhlil yazılarda yararlanmaq olar.

**Dissertasiya işinin yerinə yetirildiyi müəssisə**. Dissertasiya işi Bakı Avrasiya Universitetinin Ümumi filologiya kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın mövzusu Bakı Avrasiya Universitetinin Elmi şurasının 30 oktyabr 2015-ci il tarixli (protokol №EŞ02-09/15) və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası nəzdində Humanitar Elmlər üzrə Problem Şuranın 04 iyun 2015-ci il tarixli (protokol №4) qərarları ilə təsdiq edilmişdir.

**Tədqiqatın strukturu.** Giriş (15530 işarə), I fəsil (105670 işarə), II fəsil (88017 işarə), III fəsil (60562 işarə), nəticə (6865 işarə) və ədəbiyyat siyahısından ibarət olan dissertasiya işinin ümumi həcmi 276644 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiya və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, struktur bölmələrinin ayrılıqda həcmi və işarə sayı haqqında məlumat verilir.

Tədqiqat işinin "**Qərbi Azərbaycan ədəbi-mədəni mühiti: tarixi, ümumi səciyyəsi və humanitar fəlakət dövrü**" adlı birinci fəsli beş paraqrafdan ibarətdir. Birinci paraqraf "**Qərbi Azərbaycanda ictimai-siyasi və tarixi-mədəni prosesin ümumi xülasəsi**" adlanır. Burada Azərbaycan xalqının ictimai-siyasi, ədəbi-mədəni, tarixi-sosial məfkurəsində köçün və işğalın səbəb olduğu fəsadlar tədqiqata cəlb edilir. Azərbaycanın Rusiya tərəfindən işğalı, Gülüstan müqaviləsi (12 oktyabr 1813), Türkmənçay müqaviləsi (10 fevral 1828) böyük tarixi və zəngin mədəniyyəti olan xalqın fəlakətlərinin başlanğıcı, dövlətçilik məfkurəsinin rus şovinistləri tərəfindən sarsıdılaraq yox edilməsi məqsədi açıqlanır.

XVIII əsrin sonu – XIX yüzilliyin başlanğıcında Azərbaycanın daxili və xarici siyasi vəziyyətinin mürəkkəbliyi vahid Azərbaycan dövləti yaratmaq cəhdlərinin boşa çıxması üçün əsas olmuşdur. *"Ayrı-ayrı xanlıqların hakimlərinin yalnız öz şəxsi mənafelərindən əl çəkmək istəməməsi, öz xanlığını qoruyub saxlamaq naminə bir-birinə güzəştə getməməsi bu işə əsaslı şəkildə mane oldu. Belə bir şəraitdə Azərbaycana göz dikmiş İranın və çar Rusiyasının işğalçı planlarına qarşı dura biləcək vahid qüvvə yox idi"* [1]. Azərbaycanın Rusiya və İran tərəfindən işğala məruz qalması prosesi, ermənilərin məqsədli köçürülməsi, imperiyanın işğalçılıq konsepsiyasında demoqrafik mənzərənin dəyişdirilməsi və köçürülmə siyasəti bir məqsəd olaraq reallaşır. 1826-1828-ci illərdə on səkkiz min erməni ailəsinin köçürülməsi, İranla Rusiya arasında bağlanan Türkmənçay müqaviləsinə görə ermənilərin İrandan maneəsiz olaraq köçürülməsi kimi faktlar bunun bariz örnəyidir. K.N.Şavrov yazır ki, *"iki il ərzində, 1828-ci ildən 1830-cu ilədək, biz Zaqafqaziyaya 40 mindən çox İran və 84 min Türkiyə ermənisi köçürdük və onları erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən*

---

[1] Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər / – Bakı: Elm, – 1993. – s.203

*yaxşı torpaqlarında yerləşdirdik: onlara 200000 desyatindən çox xəzinə torpağı ayrıldı”* [2].

Həmçinin siyasi sferada baş verən proseslərə toplum münasibəti, Cavad xanla bağlı yaranmış müəllifi məlum olmayan nəğmə imperiya məfkurəsinin mahiyyətini tam olaraq ortaya qoyur və prosesin tarixi axarına aydınlıq gətirilir:

*Bayraqları bürc üstündə qurdular,*
*Tifil uşaqları tamam qırdılar.*
*Ol vəqt ki, Cavad xanı vurdular,*
*Sanasan qırıldı beli Gəncənin* [3].

A.Bakıxanov, M.A.Qarabaği Gəncənin alınmasına qarşı Cavad xanın, bütünlükdə əhalinin fədakarlığını təfsilatı ilə təqdim edir. Dekabrist M.A.Muxanov “Gəncənin alınması” oçerkində mücadiləni qəhrəmanlıq və vətənpərvərlik nümunəsi olaraq təqdim edir və vurğulayır ki, rus generalı beşinci dəfə şəhərin təhvil verilməsini tələb etdi. Generalın *“şəhəri alacağam və səni də öldürəcəyəm təhdidinə məğrur Cavad xan “sən qalada cənazəmi taparsan”* deyə cavab vermişdi”[4].

Göyçə mahalı Rusiyanın müstəmləkəsinə çevrildikdən sonra onun azərbaycanlı əhalisinin 2,5 milyonu 1828-ci ildən 1990-cı ilədək mərhələlərlə didərgin salınmışdır. *“Adı çəkilən ərazilərdə azərbaycanlıların əsrlər boyu yaratdığı mədəniyyət və tarixi abidələri məhv edilmiş, türk mənşəli yerli toponimlər erməniləşdirilmişdir”*[5].

Dədə Qorquddan üzü bəri son dərəcədə zəngin mədəniyyəti aşılayan bölgə maddi və mənəvi irsi, arxeoloji qatı ilə qədim bir tarixi formalaşdırır. Miskin Abdal, Ozan Heydər, Ozan İbrahim, Ozan Cəlil

---

[2] Шавров, К.Н. Новая угроза. Русскому делу о Закафказье: предстоящая распродажа Мугана иностранцам / Санкт-Петербург, – 1911. – с. 59-60.

[3] Əfəndiyev, P. Folklorşünaslıq məsələləri / P.Əfəndiyev. – Bakı: Ləman MMC, – 2018. – s. 279

[4] Əfəndiyev, P. Folklorşünaslıq məsələləri / P.Əfəndiyev. – Bakı: Ləman MMC, – 2018. – s.279

[5] Məhərrəmov, Z. Unudulmaz sazlı-sözlü yurdumuz / Z.Məhərrəmov. – Bakı: Çaşıoğlu, – 2011. – 430 s

və s. onlarca, yüzlərcə sənət adamları yetişdirmiş bu mühit unikallığı ilə Oğuz-qıpçaq mədəniyyətinin mifoloji qatını bir dəyər, etnik kod olaraq müəyyənləşdirməsi ilə nəzər-diqqəti cəlb etmişdir. Y.Qarayevin yazdığı kimi, *"Doğrudur, vaxtilə bir bütün olan inzibati ərazimizdən tarixi folklor bölgələri əsrlər boyu tez-tez qopub düşüb. Ən böyük itkilər isə iki yüz ildə baş verib. Təkcə onu demək kifayətdir ki, ən səciyyəvi folklor bölgələri hamısı [əksəriyyəti] indi çağdaş milli-inzibati ərazidən çıxdaş olub, hüquqi-siyasi xəritədən kənarda qalıb: Göyçə mahalı, Çıldır-Ağbaba, Borçalı və Dərələyəz, Dərbənd və Kərkük-Tuz Xurmat... Urmiya, Təbriz, Savə, Zəncan ilə ayrılığı mən hələ demirəm. Xəritəmiz yalnız folklorumuzda dəyişməyib, bütün qalıb"* [6].

Bütün bunlar mifik zamandan günümüzə gələn böyük bir mədəniyyət layının və onun yaradıcısı olan etnosun müəyyənləşdirdiyi mənəviyyat kosmosunun hansı dağıdıcı məfkurə ilə üz-üzə qaldığını, coğrafi-siyasi baxımdan hansı problemlərə sürükləndiyini aydınlıqla göstərir.

**"XX əsrdə tarixi Azərbaycan torpaqlarında erməni monoetnikləşdirmə siyasəti: tarixi və ideoloji əsasları"** adlanan II paraqrafda erməniləşdirmə məsələsi və bu prosesin gedişi ədəbiyyat faktları əsasında sistemli şəkildə araşdırılır. Görkəmli yazıçı, dramaturq C.Cabbarlının "1905-ci ildə" pyesi bunun tipik örnəyidir. Çar Rusiyası dönəmindən öz başlanğıcını qoymuş və dövlət səviyyəsində köçürmə siyasəti ilə reallaşdırılan proses bolşeviklərin hakimiyyətə gəlişindən sonra da eyni səviyyədə və hətta bir qədər fərqliliklə, daha doğrusu, əlavələrlə davam etdirilmişdir. Araşdırmaçılar 1905-ci ildən günümüzə qədər çirkin və antiimperialist siyasətini davam etdirməsini, rəsmi sənədlərdə isə ermənilərin Azərbaycan türklərinə qarşı genosid, soyqırım siyasətini tutarlı dəlillərlə sübut edirlər. Məsələn, 1918-1920-ci illərdə Göyçə gölünün şərq və şimal sahillərində yerləşən azərbaycanlı kəndlərinin 84-ü

---

[6] Qarayev, Y. Göyçəyə qayıdan yol folklordan keçir / Azərbaycan folkloru antologiyası. III kitab, Göyçə folkloru. – Bakı: Səda, – 2000. – s. 3

dağıdılmış, əhalinin böyük əksəriyyəti amansızcasına qətlə yetirilmişdir. *“Basarkeçər rayonunun 115 mindən çox evi olan 22 kəndi bir həftə ərzində talan edilmiş, salamat qalan sakinləri isə var-dövlətini qoyub Gəncə və Cavanşir qəzalarına qaçmış, aran rayonlarında sığınacaq tapmışlar”*[7]. Ermənilərdən Qafqazda Rusiyanın məqsədləri naminə yararlanması imperiya siyasətinin təməl prinsiplərinə dayanır. İrəvan, Eçməzdin, Zəngəzur, Dərələyəz, Dərəçiçək, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Gəncə, Tiflis, Bakı bölgələrində baş vermiş terror hadisələri, iğtişaşlar bunun örnəyidir.

Bölgədə erməni və rus siyasətinin ayaq açdığı zamanlarda xalqın vahid mövqe nümayiş etdirməsi, çağırışları (məsələn, xalq şairi H.Arifin *“Göyçəlilər, dağılmayın Göyçədən”*) erməni monoetnikləşdirməsi diskursunun dağıdıcılığına yönəlmişdi[8]. H.Orucov göstərir ki, 1988-ci ilin noyabr ayının axırınadək 200 mindən artıq azərbaycanlının Ermənistandan deportasiya olunmasına baxmayaraq hər cür məhrumiyyətlərə sinə gərərək iki il doqquz aydan artıq bir dövrdə Nüvədililər bütün Ermənistanda yeganə azərbaycanlı kəndi kimi qoruyub saxlamış və erməni təcavüzkarlara qarşı mərdliklə mübarizə aparmışdır: *“1991-ci il avqustun 8-də erməni qoşun dəstələri sovet ordusunun köməyi ilə Ermənistanda olan axırıncı azərbaycanlı kəndinin 1700 (1979-cu il siyahıya almasına görə) nəfər əhalisini də öz doğma yurdundan didərgin saldılar”* [9].

XX əsrdə üç dəfə erməni təcavüzü ilə qarşılaşan (1905, 1918, 1988) Nüvədi, eləcə də digər Qərbi Azərbaycan kəndləri, türkün əvəzsiz mədəniyyət ocaqları imperiya siyasətinin nəticəsində ucu-bucağı görünməyən təqiblərdən, acılardan keçmişdir. Ermənistan SSR Mığrı rayonu Nüvədi kənd sakinlərinin tarixi müraciəti (10 oktyabr

---

[7] Qurbanov, B. Qanlı terror gün işığında / N.Zamanov, R.Əliyev, Ş.Səlimbəyli. Terrorizm – qan çilənən torpaq. – Bakı: Avropa, – 2009. – s. 5

[8] Arif, H. Seçilmiş əsərləri / H.Arif. – Bakı: Meqabasım, – 2011. – s. 29

[9] Orucov, H. Burdan min atlı keçdi / H.Orucov. – Bakı: Apostroff MMC, – 2016. – s. 168

1989-cu il) bunun tipik örnəyidir[10]. Bütün bunlar Qərbi Azərbaycanda gedən tarixi prosesin ümumi mənzərəsini, etnik təmizləmənin imperiya məfkurəsinə dayanmasını, Azərbaycan torpaqları hesabına Ermənistan Respublikası yaratmanın əsasını və son olaraq böyük mədəniyyət yaradıcısı olan bir xalqa qarşı yönəlik məqsədyönlü siyasətin formulunu, ideoloji əsaslarının ümumi məzmununu faktlaşdırır.

Birinci fəslin "**Qərbi azərbaycanlılara qarşı erməni təcavüzü humanitar fəlakət kimi**" adlı III paraqrafında İrəvan, Göyçə, Zəngəzurun (bütünlükdə Qərbi Azərbaycanın) zəngin flora və faunası, mədəniyyət abidələri, ilkin təsəvvürlərdən günümüzə gələn möhtəşəm sənət və ədəbiyyat nümunələri araşdırılır. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin verdiyi tarixi sərəncam (1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında) bütün aspektləri ilə prosesin genealogiyasının mahiyyətini ortaya qoyur. Orada vurğulanır ki, *"son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli facia və məşəqqətlərə məruz qalmışdır"*[11]. Bütün bu proseslər Məmməd Orucun "Köçürülmə" romanında bədii təsviri və hadisələrin axarı ilə öz əksini tapmışdır. Ümumiyyətlə, humanitar fəlakət səviyyəsində həyata keçirilən etnik təmizləmə və soyqırım problemi təkcə erməni xisləti olmaqla məhdudlaşmır, burada rus şovinizminin imperiya məfkurəsindən gələnlər-işğalçılıq ayrıca bir istiqaməti müəyyənləşdirir. C.Cəfərov, C.Allahverdiyevin qeyd etdikləri kimi, *"1928-1937-ci ildə Qərbi Azərbaycanda 586 azərbaycanlı ziyalı*

---

[10] Ermənistan SSR Mığrı rayonu Nüvədi kənd sakinlərinin müraciəti // "Azərbaycan" qəz., – 10 oktyabr 1989-cu il

[11] 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında // "Azərbaycan" qəz., – 18 dekabr 1997-ci il

*repressiyaya məruz qalmışdır"*[12]. Bütün bunlar Qərbi azərbaycanlıların repressiyaya məruz qalmasını və humanitar fəlakətlərin miqyasını göstərir.

XX əsrin 30-cu illərinin dalğası Qərbi azərbaycanlıların həyatında ağır izlər qoymuşdur. Qabaqcıl ziyalılar, xalqın düşünən beyinləri "kulak", "bəy", "xan", mülkədar", "qolçomaq", mövhumatçı", "millətçi" və s. adlarla təqiblərə məruz qalmışlar. Erməni millətçilər yaranmış situasiyadan məharətlə istifadə edərək məkrli siyasətlərini həyata keçirmək yolunu tutmuşlar. Qətllər, amansızlıqla cəzalandırmalar, şər, böhtan və s. onların fəaliyyət prinsipində çoxalan istiqamətdə özünü büruzə verməyə başladı. Dövlət səviyyəsində 1948-1953-cü illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına gedən yolun nəzəri konsepsiyası hazırlandı və 1988-ci il kütləvi qırğınları ilə monoetnikləşdirmə (monoerməniləşdirmə) planını tarixin ibrət dərsi səviyyəsində reallaşdırıldı. Qərbi Azərbaycan kimi böyük və zəngin mədəniyyət ocağı dünyanın gözü qarşısında dağıdılıb yox edilərək tarix səhnəsindən silindi.

I fəslin "**Qərbi Azərbaycan folklor mühiti və humanitar fəlakət"** adlanan IV paraqrafında Qərbi Azərbaycan folklor mühiti öz əski gələnəyinin ortaya qoyduğu yaddaş formulu ilə özünüifadənin seqmenti kimi diqqət önünə gətirilir. Qərbi Azərbaycan folklorunun müxtəlif zaman kəsimlərində yaranmış örnəkləri bir işarə kodu olaraq toplumun mədəniyyət və düşüncə təsəvvürlərini özündə əhatələyir. Bunların böyük bir hissəsi tarixilik baxımından əski təsəvvürdən Rusiyanın işğalına qədər dönəmi özündə ehtiva edirsə, digər bir qismi son iki yüzillik zamanın dərinliklərinə dayanır. Köçkünlük, qəriblik, həsrət, yurd nisgili, ayrılıq, müxtəlif tarixi hadisələri işarələyən faktlar olaraq özünə yer alır. *"Təcavüzkar müharibələr, milli-etnik təmizləmələr, deportasiya və terror xalqımızın folklor yaddaşında mühafizə olunan nanay və tırınqıları, neçə-neçə dastan və nağılları,*

---

[12] Cəfərov, C. İrəvanda ictimai-siyasi və mədəni mühit / C.Cəfərov, C.Allahverdiyev. – Bakı: ADPU, – 2018. – s. 49

*bir sözlə, şifahi ədəbiyyatımızın böyük bir qismini məhv etmişdir”*[13]. Böyük bir coğrafi- mədəni layı əhatələyən bu sənət və mədəniyyət çevrəsi tarix, etnoqrafik zənginlik baxımından sistemli yanaşmaları, mahiyyət səviyyəsində təhlilləri zəruriləşdirir.

Aşıq Ələsgərin, Şair Məhəmmədin, Aşıq Nəcəfin, Aşıq Əsədin, Aşıq Talıbın, Zodlu Aşıq Ağayarın, Usta Abdullanın, Murad Niyazlının, İsgəndər Ağbabalının, Mais Gəncəlinin, Hacı Bayramovun, Fətulla Göyçəlinin, Mahmud Məmmədovun, Bəhmən Göyçəlinin və onlarla saz-söz ustadlarının yaradıcılığında köç, erməni qırğını, azərbaycanlılara qarşı törədilən cinayətlərin sonsuzluğu müxtəlif səviyyələrdə özünə yer alır:

*Hanı mən gördüyüm qurğu büsatlar?!*
*Dərdi-məndlər görsə, tez bağrı çatlar;*
*Mələşmir sürülər, kişnəşmir atlar,*
*Niyə pərişandı halların, dağlar*?![14]

Beləliklə, etnosun Qərbi Azərbaycan timsalında coğrafi atlası erməni təcavüzü ilə tarix səhnəsindən silinsə də, onun folklor atlası maddi və mədəniyyət fondu fonunda həmin tarixi və etnoqrafik zənginliyi əlavələrlə (köç motivi, yurd nisgili ilə) özündə qoruyub saxlamaq və gələcəyə daşımaq kimi bir missiyanı öz üzərinə götürür.

**I fəslin “Qərbi Azərbaycan ədəbi mühiti”** adlanan beşinci paraqrafın dinamik mənzərəsində fasiləsiz axtarışlar, cəmiyyəti ifadəyə, mühitin əsrarəngizliklərini ortaya qoymağa səsləyən bir proses öz əksini tapır. Qərbi Azərbaycanın zəngin ədəbi mühiti müxtəlif səviyyələrdə etnik sistemi, onun ruhani ahəngini, zəngin mühit qaynarlığını ifadə etmək baxımından unikal təsir bağışlayır. Miskin Abdal (1430– 1535,), Ozan Heydər (XV əsr), Ozan İbrahim (XV əsr), Ozan Cəlildən (XV əsr) və s. söz-sənət korifeylərindən gələn tarixi yol XIX-XX əsrlərdə yüzlərlə sənətkarın zəngin yaradıcılıq

---

[13] Ağbaba, A. Ağbaba-Çıldır aşıq mühiti / A.Ağbaba. – Bakı: Elm və təhsil, – 2012. – s. 5

[14] Aşıq Ələsgər. [2 cilddə], / Aşıq Ələsgər. – Bakı: Elm, Cild 1., – 1972. – s.87

axtarışları ilə zənginləşir. *"İndi Ermənistan adlanan Qərbi Azərbaycanın azəri türklərinin yaradıcılıq uğurları ədəbiyyat, mədəniyyət və incəsənət sahəsində əldə etdikləri nailiyyətlər tarix boyu diqqət mərkəzində olub. Orada yaranan dəyərli sənət inciləri bu gün Azərbaycan mədəniyyətinin mühüm qollarından biri hesab edilir"*[15]. Rəssamlıq, heykəltəraşlıq, rəngsazlıq, miniatür sənəti, dulusçuluq, musiqişünaslıq və s. sahələrdə olan zənginlik etnosun çoxyönlü yaradıcılıq və dolğun həyat tərzinin ümumi mənzərəsini əhatələyir. İrəvanda Azərbaycan türklərinin 1957-ci ildən 1988-ci ilədək şair və yazıçılarımızın öz ana dilində onlarca kitabı işıq üzü görmüşdür. "Ədəbi Ermənistan" adlı almanaxın 9 cildi İrəvanda çap olunmuşdur. Azərbaycanlı qadınlar klubunun yaranması (1923), "Zəngi" qəzetinin fəaliyyəti (1924), Pedaqoji Texnikumun formalaşması (1924), İrəvan Yazıçılar Birliyi nəzdində azərbaycanlı bölməsinin təşkili (1927) və s. mühitin qaynar mənzərəsinin göstəricisidir.

Qərbi azərbaycanlıların ədəbi-mədəni mühitinin canlanması faktorlarından biri sovetlər səviyyəsində yaradıcılıq bağlantılarının inkişaf etdirilməsi sahəsində aparılan müzakirələrə üstünlük verilməsi idi. Moskvada Yazıçılar İttifaqının qurultayı (1934) sonrakı dövr fəaliyyət üçün istiqamətverici xarakteri ilə nəzər-diqqəti cəlb edir.

C.Cabbarlı adına teatrın fəaliyyəti ayrı-ayrı səhnə əsərlərinin geniş ictimaiyyətə çatdırılması üçün bir tribuna idi. M.F.Axundovun, Ü.Hacıbəyovun, N.Vəzirovun, Ə.Haqverdiyevin, C.Cabbarlının və başqalarının dram əsərlərinin tamaşaya qoyulması mühitin və ümumiyyətlə, türk toplumunun aktiv həyatının göstəricisi idi. İrəvan Dövlət Azərbaycan dram teatrında mühitin istedadlı nümayəndələrindən Nəsib Əfəndiyevin "Od içində", "Qısqanclıq", Ə.Süleymanovun "Alovlar", "Son tale", "İki həyat", "Üç yoldaş", "Ayna" və s. sənətkarların dram əsərləri səhnələşdirilmişdir.

[15] Qoca, F. Mənəviyyatın aynası / Ədəbi İrəvan. – Bakı: Yurd NPB, – 2005. – s. 3

**“Qərbi Azərbaycan şairlərinin yaradıcılığında köç və işğal problemi”** adlanan ikinci fəsil üç parqrafdan ibarətdir. Fəslin birinci paraqrafında **“Mühit sənətkarlarının poeziyasında vətən həsrəti”** sistemli şəkildə təhlil olunur. Müxtəlif zaman kəsimlərində yaşayıb yaratmış şairlərin kökdən gələn yüksək, peşəkar sənətkarlığı nəticəsində yaranmış poetik nümunələri problem baxımından tədqiqata cəlb olunur. Bir daşın, bir ovuc torpağın vətən səviyyəsində obrazlaşması mahiyyət səviyyəsinə qalxır. “*O ellərin taleyinə gəlincə, yarı qaçqın, yarı əsir – girovdu*” (Sərraf Şiruyə) olanların reallığını verir və düşmənə qarşı dayanmağın vətəndaşlıq borcu olmağını söyləməklə “v*ətən sərhəddinə sənsən bir kilid”* qənaətinə gəlir və son olaraq müqəddəs vətənin düşdüyü durumun çağdaş tablosunu cızır. *“Hər nazik bir cığır, adi bir keçid, hər bələn, hər sısqa bulaq Vətəndir”* deməklə etnik-milli mənsubiyyətin varlığını topluma ünvanlayır. Çoban Məhəmməd, Şair Bəhmən Göyçəli, Alqayıt, Hidayət, Əli Vəkil, İsmixan Didərgin, Avtandil Ağbaba, Nazim İbrahimoğlu, Musa Urud, Məcnun Göyçəli, Sərraf Şiruyə, Həsən Xəyallı, Qəmgin Fəzi, Xasay Hacıyev, Əmir Göyçəli, Nəbi Həsənoğlu, Molla Əmirxan, Aqil İman, Aqşin Hacızadə, Araz Yaquboğlu, Qılman İmanlı və başqalarının yaradıcılığında vətən həsrəti, qədim oğuz ellərinin zəngin məişəti, qaynar dağ-aran köçləri, etnoqrafik atlası bütün təfsilatı ilə özünün ifadəsini tapır.

Baş alıb gedən irticalar, təqiblər, deportasiyalar və onun artan tempi son olaraq Ermənistan adında bir respublikanın qədim türk torpaqlarında yaranması ilə nəticələndi və hələ bu azmış kimi monoermәni reallığının baş verməsi ilə sonuclandı. “Göyçəlilər, dağılmayın Göyçədən” çağırışının “Hüseyn Arif, dağılmışıq Göyçədən” cavabına qədər bir tale yaşandı.

*Təcavüz baş verdi, qırğın başladı,*
*Hüseyn Arif, dağılmışıq Göyçədən.*
*Ələsgərin ruhu qaldı kimsəsiz,*
*Hüseyn Arif, dağılmışıq Göyçədən.*

*Yağı düşmən təzələdi dərdimi,*

*Söngümüşdü köz elədi dərdimi,*
*İlmə saldı, çözələdi dərdimi,*
*Hüseyn Arif, dağılmışıq Göyçədən* [16].

Beləliklə, ayrı-ayrı sənətkarların yaradıcılığında özünü göstərən sənət örnəkləri bütün məzmunu ilə, tarixi yaddaşı ilə etnosun milli müəyyənlik üzərində özünü təşkilinə bağlanmaqla müqəddəs vətənə qayıdışın modelini içində hazırlamağa köklənir.

**"Köç, yurd həsrəti, işğal motivləri və erməni vəhşilikləri"** adlanan ikinci paraqrafda Azərbaycanın başına gətirilən fəlakətlərin siyasi xətti, regionda erməni "tipinin" reallaşması üçün imperiya tərəfindən Ermənistan adlı dövlətin yaranması məsələləri aydınlaşdırılır. Tarixi reallığı üst xəttə çıxaran bu bölümdə ciddi araşdırmaya ehtiyac duyulan faktlar ortaya qoyulur. E.İsmayıl göstərir ki, bu gün dünyanın "Ermənistan" kimi tanıdığı bir respublika Oğuz türklərinin qədim zamanlardan bəri yaşadığı yurd yerləridir. On beşdən artıq (Göyçə, Zəngibasar, Dərəçiçək, Gərnibasar, Vedibasar, Dərələyəz, Sürməli, Ağbaba, Pəmbək, Sərdarabad, Zəngəzur, Şəmsəddin, Qaraqoyunlu, Dağborçalı, Şörəyel) Azərbaycan mahallarının üzərində yaradılmış Ermənistanda hazırda əzəli sakinlərindən, yəni türk əsilli bir nəfər də olsun yaşamır. Rusiyanın böyük köməyi, Fransanın, İngiltərənin yaxından dəstəyi ilə 1828-ci ildən Türkiyədən, İrandan və başqa ölkələrdən köçürülüb gətirilən ermənilər İrəvan xanlığının ərazisində yerləşdirildi. *"1918-ci ilin mayından 1920-ci ilin noyabrına qədər hakimiyyətdə olan daşnaq hökuməti 9 min kv.km ərazisini Ermənistan elan eləmişdirsə, Sovet hökumətinin gəlişi ilə bu ərazi ermənilərin xeyrinə üç dəfə artdı"* [17]. Bütün bunlar məsələlərin mahiyyətini bir neçə xətdə açılmasını zəruriləşdirir:

a) siyasi kontekstdə problemin dərkinin və həllinin poeziyada görünüşü;

---

[16] Bir kökün budaqları / Toplayıb tərtib edəni A.Yaquboğlu. – Bakı: Nurlan, – 2006. – 216 s.

[17] İsmayıl, E. Cahan ömrü / E.İsmayıl. – Bakı: Səda, – 2008. s. 17

b) toplumun etnogenetik mədəniyyət təsəvvürlərinin düşünülmüş şəkildə Qərbi Azərbaycan timsalında reallaşmasının bədii ədəbiyyatda dərki;

c) imperiya məfkurəsinin türk xalqlarına münasibətinin geniş aspektdə milli səviyyədə xalqa çatdırılması;

ç) milli və tarixi yaddaş hadisəsi olaraq bunların müxtəlif kontekstlərdə tarixləşməsi və mahiyyətin açılması;

d) yurda qayıdış ruhunun aşılanması və gələcək nəslə bir mövcudluq kodu olaraq çatdırılması;

e) etnik toplumun regiondakı (Qərbi Azərbaycandakı) coğrafi, mədəni, ictimai, əxlaqı, tarixi və s. mədəniyyət fondunu bir tarix, tarixin dərsi olaraq qoruyub saxlamaq;

ə) köç, yurd həsrəti, işğal, erməni vəhşiliyinin yaddaşlara köçürülməsi, hadisələrin Qərbi Azərbaycan timsalında gələcək nəsillərə ötürülməsi və milli özünütəşkilin reallaşması və s.

Bütün bunlar baş verənlər timsalında ermənilərin təcavüzkar xislətini, böyük bir etnosun maddi və mənəvi kosmosunu dağıtmağa istiqamətləndiyini aydınlaşdırır.

*Ömür sarayımı sökür həsrətin,*
*Gözümdən qanlı yaş tökür həsrətin,*
*Qəddi-qamətimi bükür həsrətin.*
*Həsrətdən ağarıb tel, Dərələyəz!*
*Dərdindən yay olub bel, Dərələyəz!* [18]

Göründüyü kimi, bədii mətnin ortaya qoyduğu təfsilat Dərələyəz timsalında baş verənlərə münasibəti ümumxalq səviyyəsində faktlaşdırır. Mühit sənətkarlarının şeirlərində əsas diqqət etnoenerjinin ötürülmə mexanizminə həssaslığı ifadə edir. S.Şiruyyənin "Vətən sənə oğul dedi", "Od oğlu od içində", "Cəsurlar", "Ölümdən sonrakı ömür", "Ölümdən betər", "75 yara", "Dəmir Yelmar" kimi irihəcmli poemaları məhz bu qəbildəndir. *"Sərraf Şiruyyənin bu əsərlərinin hər biri erməni separatizminin, erməni vəhşiliyinin Azərbaycan xalqının*

---

[18] Mirzə, H. Hanı o səndəki el, Dərələyəz? / H.Mirzə. – Bakı: Qismət, – 2002. – s.23

*taleyində yaratdığı göynəmli ağrıların, qanlı izlərin və iyrənc məkrin real faktlarla ifadəsi, həmçinin Vətən, Torpaq uğrunda döyüşən, canlarını qurban verən oğul və qızlarımızın qəhrəmanlıq dastanıdır. Şiruyyənin "Loğman dağı", "Ana torpaq" və "Göyçə yaman Göyçədi" poemaları onun nə qədər geniş poetik imkanlara malik olduğunu təsdiqləyən əsərlərdəndir"* [19]. Bunlar bayatı, nəğmə, oxşama, əzizləmə, rəvayət, dastan, nağıl, əhvalat və s. formasında müəyyənlikli yaddaş faktına çevrilməsi ilə diqqət önünə gəlir. Köç, yurd həsrəti, işğal motivi və erməni vəhşiliyi müstəvisində Qərbi Azərbaycandan olan şairlərin poeziyasının paradiqmatik mənzərəsini faktlaşdırır və digər müstəvidə yurda qayıdışı, düşmənə layiqli cavabın verilməsini və etnik bütövlük səviyyəsində qorunuşunu əsas məqsəd olaraq aparıcı mövqeyə çıxarır.

II fəslin "**Yurda qayıdış motivi"** adlanan üçüncü paraqrafında son iki yüz ilin hadisələri fonunda baş verənlərə toplum münasibətinin poeziyadakı mənzərəsi açıqlanır. Qaçqınlıq, köçkünlük, bütün varlığı ilə torpağa bağlı olan oğuz övladlarının dədə-baba yurdlarından perikməsi, yazılıb-yozulması mümkün olmayan ucsuzluğa aparıb çıxarır və yurda qayıdışı bir məram olaraq yaşam faktına çevirir. Bayatı, şərqi, ağı, gəraylı, qoşma, divani, müxəmməs, təcnis və s. biçimlərdə yaranan zəngin poetik örnəklər bu mənzərəni çatdırmaq məqsədinə, eyni zamanda böyük bir mədəniyyətin qurucusu olan bölgənin maddi və mənəvi sistemi səviyyəsində birliyin nümayişinə, yurda qayıdış mücadiləsinə kökləyir. Məsələn, İsmixan Didərginin bayatılarında, ümumiyyətlə, adından (təxəllüsündən) tutmuş bütünlükdə digər yaradıcılıq örnəklərinə qədər hamısı eyni ruhu, yurda qayıdışı bir məram olaraq topluma aşılamaq məqsədi daşıyır:

*Göy çəməni,*
*Meh döyər göy çəməni.*
*Hansı məkanda olsam,*
*Haraylar Göyçə məni.*

---

[19] Yusif, T. Ovsun / Ş.Şiruyyə. Susma ürək. – Bakı: SkyG, – 2015. – s. 13.

*Göy çəməndə,*
*Gül açar göy çəməndə.*
*Mən Göyçədə doğuldum,*
*Yurd saldı Göyçə məndə* [20].

Digər tərəfdən, Qərbi Azərbaycan mühitinin tanınmış söz adamlarından Həsən Mirzə ilə Aşıq Mehdinin "Olar olmaz" rədifi üstündə deyişməsi baş verənlərin açıq ifadəsidir:

*Aşıq Mehdi*
*Gəl sənə söyləyim, əziz qardaşım,*
*Vətən Dərələyəz Xaçoya qaldı.*
*Qumlunun bulağı, Murad təpəsi,*
*Məryəmin dığası Vaçoya qaldı.*

*Həsən Mirzə*
*Aşıq Mehdi, məğrur dayan, məğrur dur,*
*Vətən Dərələyəz Xaçoya qalmaz.*
*Qumlunun bulağı, Murad təpəsi,*
*Məryəmin dığası Vaçoya qalmaz* [21].

Yurda qayıdış motivi müxtəlif səviyyələrdə Qərbi Azərbaycan ədəbi-mədəni mühitinin yaradıcı ruhunun ana qaynağını müəyyənləşdirir. M.Göyçəlinin "Kamança", "Dərələyəz harayı", "Vətən sərhəddin mübarək", "Ruhlar qiyamı", "Ocaqyalı", "Göyçə dərdi", S.Şiruyənin "Yıxdı məni", "Bu yurdda", "Düşübdü", "Olubdu", "Niyə düşsün", "Günüdü", "Soruşursan məkanımı, yurdumu", "Mənim", "Qaldı", Hidayətin "Ömrüm çatacaqmı o şeiri yazım", "Ümid ver", "Zəngəzurludur", "Həsrət", "Mən kiməm", "Maralzəmi", "Gərək kəndimizdən çıxmayaydım heç", Alqayıtın "Mənim ünvanım", "Sizi gözləyir", "Qaldı", "Görmüşəm", "Qalx ayağa, Azərbaycan", "Dərdimi", "Dağlara", "Dağların", "Bilməz", Pənah Göyçənin "Dönər sənə elim Göyçə", Mahirə Nağıqızının

---

[20] Didərgin, İ. Ayırdılar qucağından Göyçənin / İ.Didərgin. – Bakı: Yazıçı, – 1992. –s. 34

[21] Mirzə, H. Hanı o səndəki el, Dərələyəz? / H.Mirzə. – Bakı: Qismət, – 2002. – s. 39

“Vətən”, “Qar havası var”, Aqil İmanın “Utanıram mən” və b. onlarla sənətkarın yaratdığı poetik örnəklərdə qədim oğuz yurdunun yaddaş nişanələri, əcdad ruhları, ruhun çağırışı, didərgin düşmüş və qəribliklə üz-üzə qalmış taleyin acıları təqdim-təfsilatla bərabər, həm də son savaşın etnik düşüncədə taktiki və strateji hədəflərini müəyyən edir. Məsələn, Alqayıtın “Yenə Göyçədi”, “Sizi gözləyir” çağırışı türkün yurdsevərliyinin, vətən sevdalı olmanın və düşmənə yurd verməmənin örnəyidir.

*Dünya cənnət olsa başdan-ayağa,*
*Mənim qibləgahım yenə Göyçədir.*
*İmanım, məzhəbim, əqidəm, dinim,*
*Qızıl barigahım yenə Göyçədir.*

*Söykəyim, dayağım, həmvətənlərim,*
*Tez gəlin, bu dağlar sizi gözləyir.*
*Qartallı qayalar, yastı çəmənlər,*
*Pərvanə bulaqlar sizi gözləyir*[22].

Bütün bunlar yurda qayıdış timsalında düşüncənin formalaşmasına və bir konsepsiya olaraq toplumun içində işlənməsinə köklənməklə reallığa aparan yolun mahiyyətini sərgiləyir.

III fəsil **“Köç və işğal problemini Qərbi Azərbaycan poeziyasında əks etdirilməsinin forma və üsulları”** adlanır və problem iki paraqrafda ümumiləşdirilir. “**Mühitin sosial-siyasi, mənəvi-ideoloji təqdimatında sənətkarlıq məsələləri”** paraqrafında böyük sarsıntılardan, mücadilələrdən, imperiya ideologiyasında ucu-bucağı tükənməyən qarşıdurmalardan keçmiş bu mühitin zəngin irsinə dayanan bədii üslub və özünü ifadə formaları araşdırılır. Qopuzdan, sazdan gələn ədəbi-mədəni düşüncə bütün varlığı ilə yurda qayıdışı və toplumun strateji hədəflərini müəyyənləşdirir. İyirminci yüzillik boyu baş verən soyqırımlar, faciələr, deportasiyalar, köçürmələr və s. Qərbi Azərbaycan coğrafiyasının, etnik-mənəvi atlasının pozulmasına yönəlmiş siyasət idi və çoxalan istiqamətdə həyata keçirilirdi. Xalq

---

[22] Alqayıt. Analı dünyam / Alqayıt. – Bakı: Hərbi nəşriyyat, – 2011. – s. 32

şairi H.Arifin çağırışına Göyçə mühitinin qüdrətli söz ustadlarının "göyçəlilər dağıldılar Göyçədən" cavabı prosesin gedişini özündə ehtiva edirsə, sonrakı dönəmin hadisələrində bir başqa tendensiya, qayıdış motivinin aparıcı xəttə çıxması özünü göstərir və "siz Allah, Göyçəyə qaytarın məni" çağırışı etnik şüurun əsas ifadə kodeksini müəyyənləşdirir:

*Qaytarın yurduma borcumu verim,*
*O ana torpağı yenidən görüm.*
*Dərdimi Ələsgər babamla bölüm,*
*Siz Allah, Göyçəyə qaytarın məni*[23].

*Və yaxud*:

*İman, həsrətindən yanası, Göyçə,*
*Yanmasa, buz olub donası, Göyçə!*
*Sənə – Ələsgərin anası Göyçə,*
*Sənə dahilərin yurdu dedilər.*[24]

Burada vətən həsrəti, köç, yurd həsrəti, işğal, erməni xisləti sənətkarlıq baxımından problem olaraq zəruriləşdirilir. İtirilmiş vətən, dağılmış yurd-yuva, viran qalmış yaddaş örnəkləri, pozulmuş, pərən-pərən olmuş mədəniyyət və mənəviyyat klişeləri bir məram olaraq cəmiyyətə (yaşananlar) çatdırılma məqsədi daşıyır və bunun isə misralararası, bəndlərarası və bütünlükdə mətn mükəmməlliyində nizamı "Dilqəmi", "Zarıncı", "Yurd yeri" və s. timsalında poetik bir ustalığa söykənir. Məsələn, Q.Hüseynli "Didərgin olduq" şeirində bir şair, yaradıcı kimi baş verənlərin acılarını misralara düzür, *"ata-baba yurdum itibdir"*[25] deməklə həm də ona layiqli cavabı verməyə səsləyir. Mahirə Nağıqızının poeziyasında isə itirilmiş yurd yerinin "Vətən" anlayışının (təsəvvürünün) bədii-estetik formulu müəyyənləşir. "Vətən, ay vətən" müraciətindən sonra gələn misralarda itirilmiş yurd yerinin tablosu canlanır:

---

[23] Cəmilli, T. Göyçəyə qaytarın məni / Ədəbi İrəvan. – Bakı: Yurd NPB, – 2005. – s. 249

[24] İman, A. Bu dünya görüş yeridi. – Bakı: OL, – 2015. – s.121

[25] Hüseynli, Q. Didərgin olduq / Ədəbi İrəvan. – Bakı: Yurd NPB, – 2005. – s.241

*Haraya getsəm də, Vətən, ay Vətən,*
*Könlümdə ruhunun var, havası var.*
*Ayrılıqdı bilməm, xiffətdi- bilməm,*
*Sənsiz hər tərəfdə qar havası var.*[26]

Qərbi Azərbaycan poeziya mühiti, demək olar, bütün ifadə formulları, janr məzmunu, nitq etiketləri ilə mövcud vəziyyəti, sosial-siyasi mənzərəni, işğalçılıq siyasətinin məram və məqsədini, elat səviyyəsində köçün hansı bəlalara yol açmasını aydınlaşdırır.

"*Pəncərədən uzun müddət həmişə baxdığım yerlərə sonuncu dəfə kədərlə, dərdlə baxa-baxa quruyub qaldım. Evimlə, yurdumla beləcə vidalaşdım, sağollaşdım. Həyətə çıxanda isə daha özümü saxlaya bilmədim. Titrəyə-titrəyə üstümə atılan itlərim sanki fəryad qoparıb, mənnən imdad diləyirdilər. Başa düşürdülər ki, son görüşdü-itlərimi,evimi qoyub gedirdim. Aşağı əyildim, itlərlə vidalaşmaq üçün. Hər ikisi də dal ayaqları üstə qalxaraq titrəyirdilər. Yaşla dolu gözlərimlə bir təhər gözlərinin içinə baxdım. Hər iki itin gözündə yaş parıltısı gördüm. Bu dəfə hönkürtümü saxlaya bilmədim. İtlərin çox duyumcul olduğunu eşitmişdim*".[27] Tahir Talıblının doğma kəndindən sonuncu ayrılığını ifadəsi, eləcə də, Müzahim Mehbalıoğlunun "Bu obanın sahibləri hardadı" şeiri çağırış, yurda qayıdış və bütünlükdə köçkünlüyə sürüklənmiş bir elatın harayıdır. Suallarla dolu olan bu poetik örnək öz içində həm də ona cavabı, düşməndən intiqam hissini diqqətə gətirir.

*Bura Toxlucadı, bura Vətəndi,*
*Vətənin göyləri dumandı, çəndi.*
*Bu kənd niyə boynuburuq qalıbdı?*
*Bu obanı kim bu dərdə salıbdı?*[28]

*Və yaxud:*

---

[26] Nağıqızı, M. Yanından keçmə dağların. – Bakı: ADPU nəşriyyatı, – 2021, – s.3

[27] Talıblı, T. El yeridi.../ Yeni fikir" qəzeti. – noyabr, 1989

[28] Mehbalıoğlu, M. Bu obanın sahibləri hardadı. Ədəbi İrəvan / M.Mehbalıoğlu. – Bakı: Yurd NPB, – 2005. – s.237

*Səs verin səsimə, ay əsən yellər,*
*Buludlu göylərin gözündə sellər.*
*Hanı Ələsgərli, Alılı ellər,*
*Mən burda qəribəm, yurd orda qərib.*[29]

Bütün bunlar, iki yüz il boyu baş verənlər, prosesin məqsədli şəkildə imperiya tərəfindən işlənib hazırlanması və həyata keçirilməsi, torpağın ulu sakinlərinin sıxışdırılması və tədrici etnik təmizləmə düşüncəsinə niyyətlənmələri, son olaraq iyirminci yüzilliyin ortalarından dövlət səviyyəsində kütləvi köçürmələr və əsrin səksəninci illərinin axırlarında bunun qırğınla, fəlakətlə, deportasiya ilə yekunlaşması və eyni zamanda erməni obrazının mahiyyətini aydınlaşdırır.

*Uçan quşlar, doğma yurddan ver xəbər,*
*Başı qarlı Murğuz elin görünmür.*
*Görüşümüz uzun çəkdi bu səfər,*
*Topaşanın, Şah meydanın görünmür* [30].

Və yaxud eyni motivi Eldar İsmayılın "Durna" şeirində görmək olar:

*Mən də qərib, sən də qərib,*
*Bu dərdimi qan, ay durna.*
*Göyçəmizdən keçər olsan*
*Şahdağına qon, ay durna.*[31]

Beləliklə, Mənsurun "Düşmənimə acı nifrət bəslədim", Zöhrə Xəlillinin "Xəbərin varmı", "Axtarıram", Valeh Savalanın "Soruş", "Bağışla, yurd yeri", Əbülfət Şişqayalının "Göyçə", Firudin Qənbərin "Vətəndə qaldı", Nəriman Əyyubun "Qaldı", "Dağlar", Kamal Körpülünün "Körpülünün dağlarında", Sevinc İrəvanlının "Şəhid anasına", "Bu dəhşətə kimlər dözər, ilahim", Kamil Novruzun "Gözləyir məni", Nəsibə İsrafilqızının "Gecələr yadıma kəndimiz

---

[29] İsmayıl, E. Mən burda qəribəm, yurd orda qərib. – Bakı: Səda. – 1998. – 268 s.

[30] Göyçəli, Q. Gərək / Ədəbi İrəvan. – Bakı: Yurd NPB, – 2005. – s. 237

[31] İsmayıl, E . Ağrı dağı qədər ağrılarım var… Bakı: Ağrıdağ,– 1999.–370 s.

düşür", "Əsgər qardaş", "Ağrı dağı görəydim kaş", Aqil İmanın "Dedilər", "Ağlar", "Dağlara", Eldar İsmayılın "Allah amanatı, "Ağrı dağı qədər ağrılarım var" və s. kimi poetik nümunələr vətən həsrətini, köç problemini, didərginlik mənzərəsini, qədim yurd yerlərinin acı taleyini, düşmənin amansızlığını müxtəlif nitq etiketləri, janr paradiqmaları ilə poetexnoloji fakturaya əsaslanmaqla tarixin dəmir yaddaşına yazır.

III fəslin sonuncu paraqrafında **"Folklor simvolikası və etnoqrafik dəyərlər mühiti ifadənin müəyyənlik kodu kimi"** sistemli şəkildə açılma məqsədi daşıyır. Qərbi Azərbaycan ədəbi-mədəni mühitinin spesifiklik mənzərəsində aparıcı funksiyalardan birinı folklordan yüksək ustalıqla istifadə təşkil edir. Yazılı ədəbiyyat folklordan yararlanmaqla mühit səviyyəsində möhtəşəm bir mədəniyyət fondu yaratmış və ümumi prosesin axarına istiqamət vermişdir. *"Folklor yazılı ədəbiyyatın əsas mənbəyi olduğu və bütün inkişaf prosesində ədəbiyyata təsir etdiyi kimi, ədəbiyyatın da öz növbəsində şifahi yaradıcılığa mühüm və səmərəli təsiri görünməkdədir"*[32]. Bütün bunlar tarixi-ictimai, sosial-siyasi proseslərin mahiyyətinin təqdimatı və poeziyanın bu prosesdə funksional rolunun aparıcılığı baxımından daha geniş aspektli yanaşmaları zəruri edir. Şair Məhəmməd, Xəstə Bayraməli, Daşkəndli Nəcəf, Növrəs İman, Usta Abdulla, Ağkilsəli Nəcəf, Şair Əbülfəz, Mirzə Bəylər, Zahid Əziz, Avtandil Ağbaba, Alqayıt, Eldar İsmayıl, İsmixan Didərgin və b. kimi onlarla, yüzlərlə yazarın yaradıcılığının ana axarını qopuzdan//sazdan gələnlər müəyyənləşdirir.

Qədim yurd yerləri, ibadət məkanları, ocaqlar, pirlər, sərdabələr, tikililər və onlar haqqında söylənən əhvalat və rəvayətlər, mif örnəkləri, regionun coğrafi landşaftının ümumi mənzərəsi, dağlar, bulaqlar, alp yamaclar və onların müxtəlif səviyyələrdə köç, işğal hadisələrindən çıxış etməklə mətnə gətirilməsi toplumun özünü təsdiq müəyyənliyini ortaya qoyur. Məsələn, İsmixan Didərginin, Hidayətin,

---

[32] Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / P.Əfəndiyev. – Bakı: Maarif, – 1992. – s.465-466

Həsən Mirzənin, Mahirə Nağıqızının, Pərvanə Zəngilanlının və başqalarının bayatı formasına müraciəti təsadüfi deyildir, əksinə çağırış xarakteri ilə bütünlükdə toplumun birlik nümayişinə hesablanmışdır. İ.Didərgin yazır:

*Göyçə mənim,*
*Göy yurdum, göy çəmənim.*
*Laylamı özü çalıb*
*Anamdı Göyçə mənim!* [33]

Və yaxud Mahirə Nağıqızının zəngin bədii irsindən bir poetik nümunəyə diqqət yetirək:

*Yenə də görüb dağları,*
*Gəzərəm qərib dağları.*
*Ay ana, hara gəlmişik,*
*Düşmənə verib dağları?*[34]

Mifdən eposa, oradan da dastana, rəvayətə, nağıl, əfsanə, atalar sözü, məsəl, mərasim folkloru nümunələrinə daşınmaqla yoluna davam edən bu zənginlik Dərələyəz, Dərəçiçək, Ağbaba, Axıska və s. kiçik mədəniyyət ocaqlarında etnik ruhun ifadə formulu səviyyəsində aparıcılıq qazanmışdır.

Xalqın zəngin folklor irsi, etnoqrafik müəyyənliyi və yurda, torpağa bağlılıq təsəvvürləri, müəyyənləşmiş klişelər prinsip olaraq bütün zamanlarda (və sferalarda) əsas götürülmüşdür. Böyük mədəniyyətin qurucusu olan Qərbi Azərbaycan toplumu torpaq, yurd səviyyəsində itirdiklərini, köçkünlük, qaçqınlıq, repressiya, sürgün, deportasiya dəhşətlərində yaşadıqlarını bədii düşüncədə tarixləşdirməklə, canlı tablosunu yaratmağa həssaslıq göstərir.

Yekun olaraq "Müasir poeziyada köç və işğal probleminin əksi (Qərbi azərbaycanlı qaçqınların yaradıcılığı əsasında)" adlı dissertasiya işində aşağıdakı **nəticələr** əldə edilmişdir:

---

[33] Didərgin, İ. Ayırdılar qucağından Göyçənin / İ.Didərgin. – Bakı: Yazıçı, – 1992. – s. 34

[34] Nağıqızı, M. Bayatılar və 3 şeir / M.Nağıqızı. – Bakı: Apostrof, – 2015. – s. 9

Müasir poeziyada köç və işğal probleminin Qərbi azərbaycanlı şairlərin poetik örnəkləri əsasında sistemli təhlilə gətirilməsi ciddi bir təfsilatın ortaya qoyulması ilə nəticələnmişdir:

-Son dərəcədə geniş əhatə dairəsinə malik olan bu mövzu təkcə poeziya səviyyəsində deyil, nəsr, dramaturgiya, publisistika timsalında sinxron və diaxron yanaşmaları problem olaraq ədəbi-nəzəri fikrin qarşısına qoyur;

-Tədqiqat işində türkün qədim mədəniyyət beşiklərindən olan Göyçə, Gümrü, İrəvan, Dərələyəz, Zəngəzur, Hamamlı, Qarakilsə, Ağbaba zəngin maddi və mənəvi qatı ilə bəşər sivilizasiyasının ilkin çağlarına qədər işıq tuta bilir. Regionun coğrafi landşaftı, toponimik sistemi, oykonim və oronimlərinin sərgilədiyi mənzərə etnik kimliyin göstəricisi kimi əlavə dəyər qazanır;

-Dədə Qorquddan üzü bəri gələn etnoqrafik zənginlik, geyim mədəniyyəti, davranış və tərbiyə institutu, folklor yaddaşı ciddi mədəniyyət və mənəviyyat kodu olaraq etnik müəyyənlik səviyyəsində öz möhürünü vurmuşdur;

-Son iki yüzillikdə baş verənlər imperiya məfkurəsində tarixi yaddaşın zədələnməsi ilə müşayiət olunmuşdur. Bədii düşüncə bütün bunları bir tarix, etnik kimliyin sarsıdılması kimi müxtəlif səviyyələrdə faktlaşdırmışdır;

-Tarixi torpaqlarından, qədim yurd yerlərindən qovulma imperiya siyasətinin tərkib hissəsi olaraq daim qabarma və dalğalanmalarla müşayət olunmuşdur. XX əsrin səksəninci illəri isə onun pik nöqtəsi səviyyəsində tarixləşmişdir;

-Köçkünlük, qaçqınlıq, işğal Qərbi azərbaycanlı yazarların poeziyasında ana mövzu olaraq aparıcı mövqeyə keçmişdir. Xalq şeiri ənənəsinə sadiqliyi ilə zənginləşən ədəbiyyat həm də xalqa sahib çıxmaq missiyasını da öz üzərinə götürmüşdür;

-Tədqiqat işində poeziya öz ümumi axarında təkcə bunları təqdimlə məhdudlaşmır, eyni zamanda bunlardan çıxış etməklə toplumun mücadilə və yaşam fəlsəfəsinə üstünlük verir. Mövzu və ifadə zənginliyi bütün parametrlərində üslub müəyyənliyi olaraq xalq dilindən gələnlərə üstünlük verməklə səciyyəvilik qazanır;

-Qərbi Azərbaycanın məhəlli səviyyədə mövcud mədəniyyət ocaqlarının spesifiklik baxımından formalaşdırdığı təsəvvür və onun ümumregion konteksti tipoloji yanaşmalarda möhtəşəm faktura ilə müəyyənləşir;

-Mətn mükəmməlliyi, sözün məna yaddaşı və janr fenomenliyində ifadəsini tapan bütövlük nəğmə, bayatı, gəraylı, qoşma, divani, müxəmməs və s. formalarda əlavə çalarlar qazanır. Səs dalğalarının məzmun axarında yaratdığı harmoniya bütün parametrlərdə etnik ruhun ifadə forması olaraq müstəqillik qazanır. Söz//Musiqi//Mətn harmoniyası Qərbi Azərbaycan kimliyinin ifadə kodu olaraq daha çox yaddaşlara həkk olunur.

- Bütün bunlar son olaraq onu deməyə əsas verir ki, Qərbi azərbaycanlıların yaratdığı böyük ədəbiyyat üfüqi və şaqulu müstəvidə sistemli təhlillərin aparılmasını bir məqsəd olaraq ədəbi-nəzəri fikrin qarşısına qoyur.

**İddiaçının dissertasiya mövzusuna dair dərc olunmuş elmi əsərləri aşağıdakılardır:**

1. Ədəbi mühitin zənginləşməsində mühüm faktorlar //Bakı: Sivilizasiya, - 2015. Cild 8 №10, (2015), - s. 37-41.

2. Qərbi Azərbaycandan çıxmış şairlərin yaradıcılığında köç və işğal motivləri // III Uluslararası Türk Dünyası Araşdırmalar Simpoziumu. Bakı-Azərbaycan;-25-27 may,- 2016. cild 1. s.613-618

3. XX əsrdə tarixi Azərbaycan torpaqlarında erməni monoetnikləşdirmə siyasəti: tarixi və ideoloji əsasları // IV Uluslararası Türk Dünyası Araşdırmalar Simpoziumu. Nigde - Türkiyə:- 26-28 iyun,-2017, Cilt 4, s.783-793

4. Müasir poeziyada Qərbi Azərbaycan ədəbi nümunələri - Aqil İman // V Uluslararası Türk Dünyası Araşdırmalar Simpoziumu. Almatı-Qazaxıstan: - 11-13 oktyabr, - 2018.- s., Cilt 1, s.538-542

5. Qərbi Azərbaycan pedaqoji mühiti – Qaraqoyunlu // Sivilizasiya - BAAU, №15-2022, s.263-268

6. İrəvan ədəbi-mədəni mühiti və onun tarixi diaxroniyası // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri // №15-2022, s.284-294

7. Hidayet Orucov'un eserlerinde göç ve işğal sorunları // Uluslararasi Türk Dünyası Araştırmaları Dergisi - İnternational Journal of Turkish World Studies //Cilt 6,№ 1 Ekim 2023. s.79-92

8. Qərbi Azərbaycan folklor mühiti və humanitar fəlakət // Gənc tədqiqatçıların VI Respublika konfransı. Bakı: - 10 mart, - 2023, - s.59-62

9. Qərbi Azərbaycan: folklor mühiti, regionun şifahi ədəbiyyat örnəkləri, türkün qədim mədəniyyət beşiyi timsalında // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri, №3, 2023, s. 323-331

10. Eldar İsmayıl yaradıcılığında Göyçə obrazı // Sivilizasiya-BAAU, Cild 12 №1 2023 (53) s.106-111

11. Rusların Azerbaycan türklerine kasıtlı yaklaşımlarının nedenleri // Uluslararasi Türk Dünyası Araştırmaları Dergisi - İnternational Journal of Turkish World Studies// Yıl 2024, Cilt: 7 Sayı: 2, 137 – 146.

12. Mahire Nağıkızı'nın eserlerinde sürgün ve vatan anlayışı// Uluslararası Türk Dünyası Araştırmaları Dergisi-İnternational Journal of Turkish World Studies //Yıl 2024, cilt: 7 sayi: 3, 271 – 282.

Dissertasiyanın müdafiəsi 26 dekabr 2024 il tarixində saat 12⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 - Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 noyabr 2024 il tarixində zəruri ünvanlara göndərilmişdir.

**Çapa imzalanıb:21.11.2024**
**Kağızın formatı: 60x84 $^{1/16}$**
**Həcm: 46186 işarə**
**Tiraj: 100**